# Azərbaycan UNESCO-nun Dünya İrs Siyahısında

**İndiyə qədər Azərbaycanın 15 qeyri-maddi mədəni irs nümunəsi YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, 2 irs nümunəsi Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil idi.**




Bunlar "Azərbaycan muğamları", "Aşıq sənəti". "Novruz", "Ənənəvi xalçaçılıq sənəti", "Tar və onun ifaçılııq sənəti", "Çovqan Ənənəvi Qarabağ Atüstü Oyunu", "Ənənəvi Kəlağayı sənəti və simvolizmi...", "Lahıcın misgərlik sənəti", "Mədəni kimliyin göstəricisi dolmanın bişirilməsi və paylaşılması ənənəsi", "Kamança simli musiqi alətinin hazırlanma və ifaçılıq sənəti", "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri", "Dədə Qorqud/Korkyt Ata/Dede Korkut irsi", "Miniatür sənəti" və "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" idi.

Bugünlərdə UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında daha üç irs nümunəmiz həmin siyahıya salınıb: Molla Nəsrəddin lətifələrinin şifahi ənənəsi, Azərbaycanın ipəkçilik sənəti və Çay mədəniyyəti. Bu nominasiyalar Azərbaycanla bərabər, bir sıra dost ölkələr tərəfindən irəli sürülüb.

Xatırladaq ki, Dünya Mədəniyyət Mirasları siyahısı bütün insanlara məxsus olan dəyərlərin qorunmasında beynəlxalq əməkdaşlığı həyata keçirmək amalı ilə  yaradılıb. Nizamlı olaraq yenilənən siyahıya 2004-cü ildən etibarən 134 ölkəyə aid 788 abidə daxil edilmişdir. Bunların 617-si mədəni, 154-ü təbii, 23-ü isə mədəni və təbii abidələrdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 4 dekabr.- S.13.